**UOT 902**
**https://doi.org/10.59849/2710-0820.2024.2.134**

**Natiq Alışov**
*AMEA, Arxeologiya və Antropologiya İnstitutu. Antik və alban arxeologiyası şöbəsinin müdiri, t.ü.f.d, dosent*
*Bakı, Azərbaycan.*
*alishov1982natiq@gmail.com*

**Vüsal Həsənov**
*AMEA, Arxeologiya və Antropologiya İnstitutunun dissertantı, Fiziki antropologiya laboratoriyasının müdiri,*
*Bakı, Azərbaycan.*
*gasanovivusal@gmail.com*

# QAFQAZ ALBANİYASINA MƏXSUS TÜLÜ KİLSƏSİNDƏ 2019-2021-Cİ İLLƏRDƏ APARILMIŞ ARXEOLOJİ və ANTROPOLOJİ TƏDQİQATLARIN NƏTİCƏLƏRİNƏ DAİR

***Açar sözlər**: Qafqaz Albaniyası, Balakən, Tülü kilsəsi, Xristianlıq, Din, Xristian abidəsi, Xristian qəbirləri.*

**Giriş**

Təqdim olunan məqalədə 2019-2021-ci illər ərzində Balakən rayonunun Tülü kəndi ərazisində yerləşən Tülü kilsəsində və onun ətrafında salınmış ilk orta əsrlərə aid xristian qəbirstanlığında aparılan arxeoloji qazıntıların nəticələrindən bəhs edilir.

Kilsə komleksində 2017-2018-ci illərdə aparılan arxeoloji tədqiqatların nəticələri "Qafqaz Albaniyasına məxsus Tülü kilsəsində aparılan arxeoloji və antropoloji tədqiqatların ilkin nəticələrinə dair"adlı məqalə Azərbaycan Arxeologiyası və Etnoqrafiyası junalının 2019-cü il ikinci nömrəsində dərc edilimişdir **[1, s.40-55].**

2017-ci ildə aparılan ilkin arxeoloji qazıntılar nəticəsində abidənin iventar nömrəsində qeyd olunduğu kimi türbə deyil, birnefli kilsə olduğu müəyyən edildi. 2017-2018-ci ilin iyul-avqust aylarında aparılan qazıntılar zamanı aynabəndin şərq hissəsində təxminən 150 kv$^2$ ərazidə dərinləşdirmə işləri aparılmış, kilsənin tikili qalıqları, o cümlədən ibadət zalı, altar, cübbəxana, şamdan yerləri və şimal qapısının yerləri müəyyən edilmişdir **[Şək 1].**

2018- ci ildə bir nefli kilsənin şimal girişinin döşəməsi təmizlənərkən buradan xristian dəfn ənənəsinə uyğun iki daş qutu, bir torpaq qəbir aşkar edilmişdir. Təkrar dəfnlərin aparıldığı qəbirlərdən ümumilikdə altı insana məxsus osteoloji materialların analizi həyata keçirilmişdir. **[1, s.40-55].**

**Kilsədə aparılan qazıntı işləri.**

2019-2021-ci illərdə hər il bir ay olmaqla abidədə arxeoloji qazıntı işləri davam etdirilmiş, nəticədə birnefli kilsənin başqa bir üçnefli kilsənin özülləri əsasında rekanstruksiya edilərək inşa edildiyi müəyyən edilmişdir.

2019-cu ilin arxeoloji tədqiqat işləri aprel ayında aparılmışdır. İlkin olaraq qazıntı işinin aparılması üçün kilsənin cənub divarında kilsə ilə zəng qülləsinin kəsişən hissəsində şimaldan-cənuba doğru 5x5 olan 2 kvadratda 5-ci qazıntı sahəsi müəyyən edildi. Kvadrat daxilində dərinləşdirmə zamanı 40 sm dərinlikdən şərq-qərb istiqamətində, eni 90 sm olan daş tikiliyə rast gəlindi. Sonradan bu divarın şimaldan-cənuba doğru davam etdiyi müəyyənləşdi.

Yeni tikili qalığının aşkarlanması ilə əlaqədar olaraq arxeoloji şurfların istiqamətinin dəyişməsi zərurəti yaradılmışdır. Bu səbəbdən ilkin olaraq müəyyən edilən 10x5 kv/m-də dəyişiklik edilərək arxeoloji tədqiqat sahəsinin ümumi ölçülərinin 2019-cu il üçün 6x6 kv2 m ölçüsündə olmasını qərarlaşdı və bu kvadrat daxilində şərq-qərb istiqamətində, 90 sm enində

aşkar olunan divarın şimal hissəsi A, cənub hissəsi B kvadratlarına bölündü **[Şək 2 ].**

Tədqiqatlar nəticəsində burada aşkar olunan divarın şimal istiqamətində, kilsənin zəng qülləsinin cənub-şərq tağı istiqamətində davam edərək birnefli kilsənin şimal divarı ilə birləşdiyi müəyyən edilmişdir. Dini ictimai binanın sərhədlərinin dəqiqləşdirməsi üçün cənub istiqamətində tədqiqatlar davam etdirildi və mövcud divarın üzəri təmizləndi. Burada aşkar edilmiş divarın eni 90 sm izlənirdi. İctimai binanın şərq divarının konturu müəyyən edildikdən sonra altarın şərqinə 1 m enində 3 m uzunluğunda qoyulmuş şurf nəticəsində 95 sm enə malik dağılmış formada bina bünövrəsinin alt daşları izlənildi.

Bünövrədə son daşlar izləndiyi üçün həmin hissəyə 2017-ci il səviyyəsində aparılmış qazıntıya uyğun bünövrə yerinin üzərinə iri daşlar yığılaraq kənarları qazıntıdan çıxan torpaqlarla dolduruldu **[Şək 3].**

Qeyd etməliyik ki, həm zəng qülləsi, həm də A-B kvadratlarında aparılan dərinləşdirmə işləri zamanı 90 sm dərinlikdən başlayaraq insan qalıqlarına rast gəlinmişdir **[Şək4-5].**

Aparılan arxeoloji qazıntıların nəticəsinə uyğun olaraq alt qatda aşkar olunan uzunluğu 14,70 m, eni isə 10,50 m, divarının qalınlığı 95 sm olan üçnefli kilsənin ilkin planı tərtib olundu. Tədqiqatlarla müəyyən edildi ki, cənubda aşkarlanmış divarın qərb hissəsi kilsənin zəng qülləsinin daxildən keçərək şimal divarı ilə birləşmişdir. Kilsə ətrafında aparılmış intensiv dəfn prosesində qərb divarı zədələnmişdir. Burada aparılan tədqiqatlarla iki daş qutu qəbirlərin ayaq hissələrinin qərb divarını kəsərək üzərinə salındığı müəyyən edilmişdir **[Şək 6].**

Qazıntı işləri 2020-ci ilin sentyabr ayında 2019-cu ildə tədqiqatı yarımçıq qalan A kv-da və divarın canub hissəsində əhatə edən B kvadratında aparılmışdır. A kvadratında tədqiqata cəlb edilmiş yeni sahənin uzunluğu 4,50 m, eni 2,10 m təşkil etməklə 1,50 m dərinliyə kimi davam etdirilmişdir. Qeyd edim ki, son iki il ərzində A-kv-dan tədqiqata cəlb olunan sahənin uzunluğu 9,50 m, eni isə bir nefli kilsənin cənub divarının memarlıq quruluşuna görə 4,50 m ilə 3 m arasında dəyişmiş və buradan ümumilikdə 19 qəbir aşkar edilmişdir.

Bu hissədəki mövcud təbəqə kilsənin dağılma prosesində formalaşan qatdan ibarət olmuşdur. A-kv da şərqə doğru artırılmış hissədə tədqiqatlar birnefli kilsənin cənub divarının üçüncü çıxıntısına (kilsə üzərində inşa olmuş ayaqyoluna) qədər davam etdirilmişdir. Bu hissədə üç nefli kilsənin döşəməsinin bir hissəsi izləndi. İki kilsə arsında salınmış qəbir kameraları üç nefli kilsənin döşəməsinin qismən yaralamışdır.

Birnefli kilsənin cənub divarındakı ikinci çıxıntıdan 1,20 sm məsafədə eni 1 m, hündürlüyü 40 sm olan yarımdarəvi (dairəvi formada olması ehtimal olunan və bir hissəsi kilsənin cənub divarının altında qalan) hissə aşkar edildi. Bu hissədə tədqiqatlar davam etdirildi və müəyyən edildi ki, aşkarlanan bu yarımdairəvi sütundan 80 sm şərq istiqamətində digər sütun formalı daha bir hissə vardır. Bu istiqamətin əks tərəfində üçnefli kilsənin cənub qapısı da izlənirdi.

İlk əvvəl biz bu sütunların bir nefli kilsənin üst örtüyünü saxlayan neflərdən biri olduğunu düşünürdük. Təqdiqatlar zamanı bu hissədə aşkar olunan yarım sütun altlıqlarının üçnefli kilsənin döşəməsi üzərində başlanması şübhələr yaratdı. Araşdırmalar nəticəsində müəyyən olundu ki, birnefli kilsənin 1,40 sm-lik enə malik ilk qapılarından biri əvvəl cənub divarında olmuşdur. Lakin bu qapı bizə məlum olmayan səbəblərdən bağlanmışdır. Qeyd edim ki, kilsənin daxili divarında bu qapı yeri izlənmir. Bu hissədə 3,15 sm ərazi bütöv şəkildə bərkitmə məqsədi ilə hörülmüşdü. Bir nefli kilsənin hörülərək bağlanılmış cənub qapısının əks istiqamətində üç nefli kilsənin 1,50 m ilə 1,70 m arasında dəyişən qapı yeri izlənmişdir **[Şək 7].**

2021-ci ilin avqust ayında baş tutan qazıntı sezonunda B kvadratına paralel olaraq alt qatda yerləşən üç nefli kilsənin cənub divarının uzunluğunun müəyyən edilməsi istiqamətində qazıntı sahəsinə düşən ayaq yolunun və şimal divarının qarşı hissəsinə, həmçinin kilsənin şərqdə yerləşən altarının konturlarını öyrənmək üçün şimal və cənub divarlarının mərkəzi kəsişməsinə şurflar qoyuldu.

Mərkəzə qoyulan şurf 1, cənub divarının qarşısına qoyulan şurf 3, şimal divarının qarşısına qoyulan şurf isə 2 sayı ilə nömrələndi. İlk olaraq 2 nömrəli şurfda aparılan tədqiqatlar nəticəsində cənub divarının 40-50 sm dərinlikdə,

95 sm enində qərbdən cənuba doğru 15,80 m davam etdiyi müəyyən edildi. 15,80 m uzunluğunda olan kilsənin cənub divarı ilə yeni inşa olunan evin divarı arasında 1 metrdən də az məsafənin qalmasını nəzərə alaraq (Qeyd edim ki, yeni inşa olunan evin bünövrə yeri 2021-ci ildə qazılmış və ev sahibinin verdiyi məlumatda bu hissə isə hər hansı bir tikili qalığının aşkar edilməməsi müəyyən edilmişdir.) 3 nömrəli şurfun şimala doğru genişləndirilməsi qərara alındı.

Bu istiqamətdə tədqiqatlar nəticəsində şərq divarının cənub-şərqküncü araşdırmaya cəlb olundu. Bələliklə burada cənub divarının uzunluğunun müəyyən edilməsi üçün 50 sm məsafəyə ehtiyac yaranırdı ki, bu da yeni tikili ilə 30-35 sm-də aralığında yerləşirdi. Kilsənin cənub divarı ilə yeni tikili arasında belə bir məsafənin mövcud olduğunu biz 2 nömrəli şurfda müəyyən etmişdik. Belə ki, şimal divarının qarşısına qoyulmuş şurf nəticəsində müəyyən olundu ki, şimal divarı qərbdən şərqə 16,30 m davam etdikdən sonra cənuba doğru istiqamətlənir.

Qoyulmuş hər iki şurfların nəticələri yaxşı olsa da, üçnefli kilsənin altar yerini və şərq divarının mərkəzi hissəsinin müəyyən edilməsi üçün tədqiqata cəlb edilmiş 1 nömrəli şurfda divar əlamətinə rast gəlinmədi. Buna səbəb 2,30 m dərinlikdə kilsə daşlarından istifadə edilərək salınmış qəbir kamerası olmuşdur. Bu qəbir kamerası şərq divarının mərkəz hissəsini, altar və ona məxsus divarın dağılmasına gətirib çıxarmışdır. Qeyd edim ki, alt qatda yerləşən qəbir kamerasına qədər olan 2,40 sm məsafədə dağıdılmış qəbir kameraları izlənmişdir. Hər üç şurfda tədqiqatlar yekunlaşdıqdan sonra ərazi əvvəlki vəziyyətinə qaytarılmşdır **[Şək 8-9].**

**Kilsə qəbirstanlığı**

Tülü kilsəsində 2019-2021 ci illərdə aparılan arxeoloji qazıntılar zamanı ümumilikdə 55 xristian qəbri aşkara çıxarılmışdır. Kilsənin şimal divarının bayır hissəsində izlənən T 19.1 nömrəli yeniyetməyə aid olan torpaq qəbir istisna olmaqla yerdə qalan 54 qəbir kilsənin cənub hissəsində qoyulmuş V qazıntı sahəsinin A və B kvatdratlarında qeydə alınmışdır.

100 kv metrə yaxın olan V qazıntı sahəsi daha qədim olan üçnefli məbədin cənub divarının daxili (a) və xarici (b) hissəsini əhatə edir. Qeyd edilən illər ərzində A kvadratında 19, B kvadratında isə 35 qəbir tədqiqata cəlb edilmişdir. Ümumilikdə sadə torpaq qəbirlər 46 (83,6%), kənarları çay daşları ilə qurulmuş torpaq qəbirlərin sayı isə 9-dur (16,3 %) **[Şək 10,11,12,13,14].**

Məlum olduğu kimi, xristian dəfn ayininin icra edildiyi qəbirlər öz forma və inşaat materiallarına görə fərqlilik göstərir. IV əsrdə xristianlığın Albaniyada dövlət dini elan edilməsi ilə torpaq qəbirlərin mədəni mənsubiyyətində mühüm dəyişiklik baş verir. Belə ki, bu dövrdən başlayaraq torpaq qəbir abidələri qədim inanclarını qorumuş əhali ilə yanaşı olaraq, xristian albanlar üçün də səciyyəvi olan qəbir tiplərindən birinə çevrilir və bölgədə xristianlığın son mərhələsinə qədər öz mövcudluğunu qoruyub saxlaya bilir. Bununla yanaşı, daş qutu, sarkofaq, sərdabə, katakomba tipli qəbir abidələri xristian əhalinin müxtəlif təbəqələri arasında geniş yayılmışdır **[2, s.13; 3, s.61].** Tədqiqatçılar qəbir tiplərindəki müxtəlif variantları coğrafi şəraitdən asılı olaraq inşaat materiallarının ayrı-ayrı növlərinin yayılması, dəfn ayinlərinin formalaşmasında inkişaf prosesi və həmçinin əhali arasında sosial təbəqələşmə ilə izah edirlər **[5, s.109].**

Tülü qəbirstanlığında aşkar edilən bütün qəbirlərdə xristian dəfn qaydalarınının əsas əlamətləri qabarıq şəkildə özünü göstərir. Skeletlər kürəyi üzərində (dorsal), kəllə qərbə, ayaqlar isə şərqə doğru uzadılmış vəziyyətdə qeydə alınmışdır. Lakin bəzi qəbirlərdə cəhətin düzgün təyin edilməməsi nəticəsində skeletin kəlləsi qismən şimal-qərbə doğru istiqamətlənmişdir. Oval və düzbucaqlı formada qurulan kameraların genişliyi yetkin insanlar üçün 40-60 sm, uzunluğu isə 1,60- 2,70 sm arasında dəyişir.

Müxtəlif vaxtlarda təkrar dəfnlərin aparıldığı qəbirlər mövcud olsa da, eyni vaxtda qoşa dəfn sadəcə B 35 nömrəli qəbirdə həyata keçirilmişdir. Bəzi qəbirlərdə ölü şəxsi bəzək əşyaları ilə bir yerdə basdırılmışdır.

Əsasən kilsənin dağılması prosesindən formalaşan A kvadratının mədəni təbəqəsi birnefli kilsənin cənub divarları boyunca qərb-şərq istiqamətində 9,50 m uzanır. Qərb hissədə kilsənin arxitekturasına uyğun olaraq 4,50 m genişlikdə olan A kvadratı şərqə doğru ensizləşərək 3-metrə qədər daralır. Kvadrat cənub və qərb tərəfdən

üçnefli kilsənin divar qalıqları ilə əhatələnmişdir. 2019-2020-ci illərin qazıntı sezonunda kvadratda 19 sadə torpaq qəbir üzə çıxarlmışdır. Yetkin və azyaşlı uşağa aid olan qəbirlərin aşkar edilmə dərinliyi 0,60-1,60 m arasında fərqlilik göstərir. A 1, 2, 3, 4, 5, 6, 9, 11 və 15 nömrəli qəbirlərdə qismən və ya tam dağılma baş vermişdir ki, nəticədə skeletlərin ilkin vəziyyəti dəyişmiş, sümüklərin çoxu qarışmışdır. A 7, 8, 10, 12, 13, 14, 16, 17, 18 nömrəli qəbirlərdə skeletlər in-situ vəziyyətini saxlayır.

Burada 1,60 m dərinlikdə aşkar edilən və kilsənin mötəbər şəxslərindən birinə aid olduğu güman olunan A 18 nömrəli qəbir üçnefli kilsənin döşəməsi təmizlənərkən ortaya çıxarılmışdır və həmin təbəqədə başqa qəbirlərə rast gəlinmədi. Digər qəbirlərdən daha dərində yerləşməsinə baxmayaraq, xronoloji cəhətdən sonrakı dövrə aid olan qəbrin çalası qazıldığı zaman A 1, 2 və 15 nömrəli qəbirləri zədələmişdir. Düzbucaqlı formada qurulmuş kameranın uzunluğu 2 m, eni isə 0.60 metrdir. Skelet arxası üstə, kəllə qərbə doğru olmaqla, qərb-şərq istiqamətinə, hər iki əl dirsəkdən bükülərək sifətə doğru uzadılmışdır. Skeletin in-situ uzunluğu 1.70 metrdir. Kəllənin hər iki tərəfində və arxa hissəsinə iri daşlar qoyulmuşdur. Maraqlıdır ki, başın daşlarla əhatələnməsi 2018-ci ildə kilsənin şimal girişindən aşkar edilən qəbirlərdə də qeydə alınmışdır **[1, s.40-55].**Yaşlı insana aid olan skelet tədqiqat üçün götürüldükdən sonra kameranın şərq küncündən və mərkəz hissədən ən az iki fərqli insana aid olan sümük fraqmentləri də aşkar edildi. Görünür, eyni qəbir çalasında daha əvvəl də dəfn aparılmışdır.

2020-ci ildə A kvadratında qazıntı işləri tamamlandıqdan sonra yeni qəbirlərin açılması B kvadratında davam etdirilmişdir. B kvadratında isə kilsəyə olan məsafəylə əlaqəli uçuntu təbəqəsi 50 sm-ə qədər davam edir ki, bu təbəqədə sadəcə dağınıq sümük və keramika fraqmentlərinə təsadüf edilmişdir**.**

Kvadratda qəbirlər mövcud yer səviyyəsindən 1-2,50 m arasında dərinlikdə beş fərlqi qatda sıx şəkildə yerləşir. Müxtəlif zamanlarda dəfn həyata keçirilərkən bilərəkdən və ya qeyri-ixtiyari olaraq bəzi qəbirlər dağıdılmış, insan qalıqları ilkin şəklini itirmişdir.

Eyni individuala aid sümük hissələrinin fərqli dərinliklərdə pərakəndə halda izlənməsi, həmçinin sümüklərin çoxunda postmortem zədələnmələrin olması qəbirlərin bir qisminin qarət məqsədilə dağıdılması fikrini söyləməyə əsas verir. Tamlığını qorumuş əksər qəbirlər 20-30 sm dərinlik fərqli olmaqla bir-birinə paralel yerləşməkdədir. B kvadratında 1,40, 1,80 və 2,50 m dərinlikdə vertikal istiqamətdə bir-birini izləyən 20, 25 və 35 nömrəli qəbirləri misal kimi göstərmək olar. Maraqlıdır ki, 25 nömrəli daş qutu qəbirin döşəməsi ya məqsədli şəkildə, ya da təsadüf olaraq 35 nömrəli qəbirə aid örtük daşların üzərində qurulmuşdur. Hər iki qəbirdə sümüklərin aşınma prosesi digərlərində sürətlə getmişdir. Bunun səbəbi tərəfimizdən araşdırılmış və belə bir nəticəyə gəlinmişdir ki, 35 nömrəli qəbir kamerasının örtük rolunu oynayan bu piltələr öz dövründə tikinti prosesində birləşdirici funkisiya daşıyan kirəcin əldə edilməsidə xammal rolunda oynamasıdır. Müxtəlif kimyəvi elemetləri üzərində cəmləşmiş piltələr tektonik təbəqələrin toqquşması nəticəsində Boyük Qafqazda formalaşmışdır. 35 nömrəli qəbir kamerası üzərində istifadə edilmiş bu tip piltələr rütubətli şəraitdə skeletlər kimyəvi reaksiya daxil olmuş və hər iki qəbirin aşınmasında xüsusi rola malik olmuşdur.

Aşkara çıxarılan digər qəbirlərin döşəmələri isə torpaqdır. B kvadratında yerləşən 4, 25, 27, 28, 29, 31, 33, 34, 35 nömrəli çay daşlarıyla qurulmuş qəbirlər 1-2,50 m dərinliklərdə və ərazi baxımından yaxın məsafələrdə yerləşmişlər. Kvadratın şərq hissəsində çaylaq qatında aşkara çıxarılan və iki gənc insanın yanaşı dəfn olunduğu B 35 nömrəli qəbir həm yerləşdiyi dərinliyə, həm də qurulma texnologiyasına görə digər qəbirlərdən fərqlənir. Əvvəlcə 270x135 sm ölçülərində oval formalı çala qazılmış, sonra isə içəridən iri daşlarla düzbucaqlı kamera qurulmuşdur. Kameranın üzəri dörd ədəd iri təbii qaya piltələrlə bağlanmışdır. İkinci kameranın uzunluğu 2.0 m, eni 60 sm.dır. Qəbirdə yanaşı şəkildə iki nəfər dəfn edilmişdir. Hər iki skeletin yuxarı ətraf, gövdə və kəllə hissəsi uyğunsuz tafanomik şərtlərə bağlı olaraq tamamən çürümüş olsa da, çanaq və ayaqların vəziyyətinə görə dəfnin qərb-şərq istiqamətində kürəyi üstə aparıldığını söyləmək mümkündür. B 35-1 nömrəli skelet tam arxası üstə, B 35-2 nömrəli skelet isə birincinin sol-şimal tərəfində qismən sağa çevrilmiş şəkildə yerləşir. Qəbir döşəmə-

sindən bir ədəd şüşədən hazırlanmış bilərzik aşkar edilmişdir.

Tülü qəbirstanlığında əllərin ilkin vəziyyətini mühafizə etmiş 25 skeletdən altı müxtəlif variant müəyyən edilmişdir. 1) Bir əl qarın nahiyəsinə, digər əl sinə üzərində ; 2) hər iki əl qarın nahiyəsində düz bucaq altında və ya paralel; 3) hər iki əl dizdən bükülərək sifətə doğru uzadılmış; 4) Hər iki əl qurşaq üzərində; 5) Əlin biri qarın nahiyəsində, digəri gövdəyə paralel olaraq düz uzadılmış; 6) Hər iki əl düz uzadılmış. Say etibarı ilə ilk üç varianta daha çox təsadüf edilmişdir. Son üç variantın hər biri üçün isə cəmi bir skelet qeydə alınmışdır.

Əllərin qoyuluş şəkilini yaş kateqoriyasına görə təhlil etsək, yuxarıda qeyd edilən altı variantdan dördünün həm uşaqlar, həm də yetkin insanlar üçün xarakterik olduğunu görə bilərik. Qeyd etməliyik ki, tədqiqatçılar tərəfindən əllərin vəziyyətinin bir neçə variantı müəyyən edilmişdir ki, onlardan bəziləri həm xristian, həm də xristian olmayan əhali üçün səciyyəvidir. Əllərin düz bucaq altında qarın nahiyəsinə və sinə üzərində çarpaz qoyulması, həmçinin, əllərin gövdəyə paralel şəkildə uzadılması daha çox xristian dəfn ayini kimi xarakterizə edilmişdir **[8, s.61; 4, s. 112].** Əlbəttə, burada digər qəbir əlamətləri, o cümlədən skeletin yerləşmə istiqamətinə diqqət yetirilməlidir.

Aşağı ətrafın ilkin şəklini mühafizə etmiş skeletlərin əksəriyyətində ayaqlar düz uzadılmışdır. A7 və B5 nömrəli yetkin insanalara məxsus olan skeletlərdə dizdən zəif bükülmə müşahidə edilir. Hər iki skeletdə əllərin qoyuluş şəkli də (qarın-sinə) eynidir. Ümumiyyətlə, skeletin sağ və ya sol böyrü üstə olmaqla az bükülü variantlarına xristianlığın ilkin dövrünə aid qəbir abidələrində rast gəlinir **[8, s. 62; 5, s.82].**

Mövcud qəbirlərin əsas (sonuncu) dəfnlərindən 33-ü (60%) yetişkin, 22-si (40%) uşaq və yeniyetmələrə məxsusdur. Tək dəfnli qəbirlərin sayı 44 (80%), ikincili (təkrar) dəfn aparılmış qəbirlər isə 11-dir (20%). A- 2, 7, 10. 14, 16, 18, B- 21, 25, 27, 31, 35 nömrəli qəbirlərin kameralarında əsas skeletdən əlavə olaraq, pərakəndə, topa və qismən anatomik şəkildə ən az bir (1) insana aid qalıqlar aşkar olunmuşdur. B27 №-li qəbirin kamerasında birinci (B27-2) skeletin gövdə hissəsi ilkin vəziyyətdə saxlanaraq üzərində təkrar dəfn (B27-1) aparılmışdır. Hər ikisi kişiyə aid olan skeletlərdə əllərin qoyuluş şəkli də bir-birindən fərqlənmir. A10 nömrəli qəbirdə isə gənc qadına aid skeletin çanaq nahiyəsində döl mərhələsində olan uşağın sümükləri qeydə alınmışdır. Dölə məxsus sümüklərin inkişaf xüsusiyyətlərini və ölçülərini nəzərə alsaq, qadının doğuşa yaxın bir zamanda öldüyünü söyləmək olar.

Hər iki kvadratın müxtəlif dərinliklərindən dağınıq şəkildə aşkar edilən sümük fraqmentlərinin sayı 500-dən çoxdur ki, onlardan bir qismi şəxslərin sayının müəyyən edilməsi üçün yararlıdır. Hansı qəbirə mənsub olduğu məlum olmayan bu cür pərakəndə sümük hissələrinin çoxu B kvadratından əldə edilmişdir. Ayrı-ayrı şəxslərə məxsus olan ümumilikdə 12 ədəd kəllə skeletinin çoxunda alt çənə qeydə alınmadı. Qeyd edilən kəllələrdən səkkizi parçalı, dördü qismən tamlığını qoruyur. Skeletin hansı tərəfinə aid olduğu çöl şəraitində müəyyən edilmiş cüt sümüklərdən bir qismi cədvəl 1- də göstərilmişdir.

**Cədvəl 1**

| **Fraqment** | **Gicgah (mastoid)** | **Bud** | **Qamış** | **Bazu** | **Dirsək** | **Kürək** | **N** |
|---|---|---|---|---|---|---|---|
| Kv. | B | A-B | B | B | A-B | B | - |
| Sağ | 7 | 17 | 7 | 18 | 13 | 5 | 67 |
| Sol | 8 | 14 | 9 | 25 | 10 | 2 | 69 |
| N | 15 | 31 | 18 | 43 | 23 | 7 | 137 |

Kv B-də qəbirlərin çoxunun döşəməsi açıq boz rəngli palçıq qarışımıyla sanki suvanmışdır. B-6,7,10,15 nömrəli qəbirlərdə eyni maddə sadəcə döşəmədə deyil, skeletlərərin üzərində həll olunmuş şəkildə izlənilir. Görünür əvvəlcədən hazırlanmış maddə cəsəd kameraya yerləşdirildikdən sonra əlavə edilmişdir. Bunun hansı məqsədlə edilməsiylə bağlı fikir bildirmək çə-

tindir. Ola bilsin ki, həmin məhlul cürüməni sürətləndirmək və ya infeksiyanın yayılmasının qarşısının alınması məqsədi daşımışdır. Mümkündür ki, qeyd edilən qəbirlərdə dəfn edilən insanlar hər hansı bir yoluxucu xəstəlik ucbatından həyatlarını itirmişlər. Qeyd edim ki, son üç il ərzində aşkara çıxardılan insan qalıqlarının antropoloji analizi yekunlaşamayıb. Buna görə də, Tülü skeletlərində xəstəlik izləri haqqında sonrakı nəşrlərdə geniş bəhs ediləcəkdir.

Tülü qəbirstanlığında bəzi qəbirlərdə ölülər öz bəzək əşyaları ilə bərabər dəfn edilmişdir. B 11, 20, 22, 25 və 26 nömrəli qəbirlərdə qəbir avadanlığı kimi müxtəlif materialdan hazırlanmış əşyalar qeydə alındı. 2019-cu ildə B kvadratında üzə çıxarılan azyaşlı uşağa məxsus 11 nömrəli qəbir nəfis hazırlanmış əşyaları ilə maraq doğurur. Sümükləri tamamilə çürümüş olan qəbrin döşəməsindən dağınıq şəkildə fərqli ölçülərdə 4 ədəd dairəvi tunc asma bəzək, şüşə qolbağ fraqmenti, ritual xarakterli antrofomorf əl fiquru, xristianlığın əsas simvolu sayılan 1 ədəd pastadan hazırlanmış xaç, çəlləkvari aqat muncuq aşkar edildi. Qeyd edilən digər qəbirlərdəki artefaktlar, əsasən tuncdan hazırlanmış bəzək əşyaları və müxtəlif ölçülü muncuqlardan ibarətdir. 20, 22 və 26 nömrəli qəbirlər yeniyetməyə, 26 nömrəli qəbir isə orta yaşlı qadına məxsusdur. Bundan əlavə, hər iki kvadratın müxtəlif qatlarından ilk dəmir dövründən başlayaraq orta əsrlərə qədər keramika nümunələrinə, şüşədən hazırlanmış bəzək əşyası fraqmentlərinə rast gəlinmişdir.

Qeyd etmək lazımdır ki, qəbirə avadanlıq qoyulması və ölünün öz bəzək əşyaları ilə birgə basdırılması xristianlığın erkən mərhələsinə təsadüf edir. Hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanın Qarabağ, Şimal-Qərb və Mingəçevir ərazisində aparılmış qazıntı işləri zamanı müxtəlif tipli xristian qəbir abidələrinin bir çoxunda qəbir avadanlıqları qeydə alınmışdır. Bu tip qəbirlər tədqiqatçılar tərəfindən IV-VIII əsrlərə aid edilmişdir **(7, s.135; 9, s.16).**

Kiçik bir ərazidə üzə çıxarılan çox sayda qəbirlər onu demeyə əsas verir ki, Tülü kilsəsinin ilkin fəaliyyət dövründən başlayaraq ərazi uzun müddət qəbirstanlıq kimi istifadə olunmuşdur. Divar kəsintilərinə əsasən söyləmək olar ki, qəbirstanlıq ərazisi cənub, şərq və qərb istiqamətində eyni sıxlıqda davam edir. Hər üç istiqamətdə ərazinin həyətyanı sahələrə düşməsi qəbirstanlığın real sərhədlərinin müəyyən edilməsini çətinləşdirir. Sakinlərdən aldığımız məlumata görə, təsərrüfat işləri zamanı mütəmadi olaraq insan qalıqlarına rast gəlinmişdir **[Şək 15-20].**

**Nəticə**

2019-2021-ci illərdə ekspedisiya tərəfindən abidədə və onun ətrafında mövcud həyat şəraitinin canlandırılması istiqamətində kompleks tədqiqatın aparılması üçün arxeoloji tədqiqatlar davam etdirilmişdir. Abidənin inşa tarixinin müəyyən edilməsi istiqamətində cənub divarında V qazıntı sahəsi müəyyən edilərək xam təbəqəyə qədər tədqiqi nəzərdə tutulurdu. Lakin qazıntı prosesi fərqli mənzərə ortaya qoymuşdur. Müəyyən olunmuşdur ki, ötən tədqiqat mövsümündə (2017-2018) aşkar edilmiş birnefli kilsə daha qədim özüllər üzərində inşa olunmuşdur. Aparılan arxeoloji tədqiqatlar nəticəsində abidədə mövcud olan üçüncü tikinti qatı aşkarlanmışdır. Bu qatın dəqiq konturlarının müəyyən edilməsi istiqamətində aparılan dərinləşdirmə işləri nəticəsində müəyyən edildi ki, Tülü kilsəsi uzunluğu qərb-şərq isiqamətində 16,30 m, eni 10,50 m., olan düzbucaqlı formada tikilmiş daha qədim dini-ictimai tikili üzərində inşa edilmişdir. Üç nefli kilsə olduğu güman edilən tikilinin giriş qapılarından birinin cənub divarında olduğu müəyyən edildi. Bununla yanaşı, üst qatda yerləşən, uzunluğu aynabənd ilə birlikdə 19 m, eni 6,70 metrlə 12,30 m arasında dəyişən bir zallı kilsənin ilk dövrlərdə cənub divarında olan və hələlik bizə bəlli olmayan səbəbdən hörülərək bağlanmış giriş qapısının yeri müəyyən edilmişdir.

Memarlıq nöqteyi-nəzərən alt qatda yerləşən üç zallı abidə xristianlığın Suriya, üst qatda yerləşən abidə isə Bizans memarlığına yaxınlığı ilə xarakterizə edilir. Tədqiqatlarla müəyyən edilmişdir ki, üçnefli kilsənin şərq divarının cənub-şərq və şimal-şərq divarları qismən sökülmüş, altar (mehrab) hissəni əhatə edən mərkəzi divar tamamilə dağılmışdır. Bu hissədə tam dağılmanı sürətləndirən amil üst qatda bir zallı kilsənin fəaliyyəti dövründə aparılan inşaat və zamanla kilsə ətrafında davam edən dəfn prosesləri olmuşdur. Kompleksin memarlıq xüsusiyyətlərini nəzərə alınmaqla üçnefli kilsə V-VI

əsrlərə, birnefli kilsə IX-X əsrlərə və bir zallı kilsənin şimal və qərb girişində inşa olunan aynabəndlər (narteks) isə X-XII əsrlərə aid edilə bilər.

Son üç ildə hər iki tikilinin xarici divarları boyunca aparılan arxeoloji tədqiqatlar nəticəsində çoxlu sayda maddi mədəniyyət nümunələri ilə yanaşı xristian dəfn ənənəsinə uyğun 55 torpaq qəbir və pərakəndə halda 300-dən çox insana məxsus sümük fraqmentləri aşkar edilmişdir. Ümumilikdə sadə torpaq qəbirlər 46 (83,6%), kənarları çay daşları ilə qurulmuş torpaq qəbirlərin sayı isə 9-dur (16,3 %). Mövcud qəbirlərin əsas (sonuncu) dəfnlərindən 33-ü (60%) yetişkin, 22-si (40%) uşaq və yeniyetmələrə məxsusdur. Tək dəfnli qəbirlərin sayı 44 (80%), ikincili (təkrar) dəfn aparılmış qəbirlər isə 11-dir (20%). Müxtəlif vaxtlarda təkrar dəfnlərin aparıldığı qəbirlər mövcud olsa da, eyni vaxtda qoşa dəfn sadəcə B 35 nömrəli qəbirdə həyata keçirilmişdir. Tülü qəbirstanlığında əllərin ilkin vəziyyətini mühafizə etmiş 25 skeletdən altı müxtəlif variant müəyyən edilmişdir. Oval və düzbucaqlı formada qurulan kameraların genişliyi yetkin insanlar üçün 40-60 sm, uzunluğu isə 1,60- 2,70 sm arasında dəyişir. Bəzi qəbirlərdə ölü şəxsi bəzək əşyaları ilə bir yerdə basdırılmışdır. Qəbirlərdən aşkar edilən insan qalıqları antropoloji cəhətdən öyrənilməsi üçün institutun fonduna təhvil verilmişdir.

Tülü kənd sakini Elşad Dabaxovun şəxsi həyətyanı sahəsində aşkar olunan abidə təkcə kilsədən ibarət deyildir. Aparılan yerüstü müşahidələr və yoxlama işlərinə əsasən kilsə ətrafında divar qalıqları müəyyən edilmişdir. Gələcəkdə kilsə ətrafı divarlar və həyətyanı sahəsində yardımçı otaqların müəyyən edilməsi ilə kompleksin tam tədqiqi yekunlaşmış sayıla bilər.

## Ədəbiyyat siyahısı


1. Alışov N.Ə, Həsənov V.P., Qafqaz Albaniyasına məxsus Tülü kilsəsində aparılan arxeoloji və antropoloji tədqiqatların ilkin nəticələrinə dair. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, №2, 2019 səh, 40-55.
2. Abdurahmanov. E. Albaniyanın Şəki vilayətinin qəbir abdələri (III-VIII əsrlər). Azerbaycan kültür başkenti Şuşa`nın 270 yılı, Dergipark.org.tr, 2022, səh .114-141
3. Xəlilov, M., Albaniyanın qəbir abidələri (IV-X əsrlər), Nafta-Press, Bakı 2009. 179 səh.
4. Göyüşov, R.B, Azərbaycan Arxeologiyası, İşıq, Bakı 1986. 186 səh.
5. Göyüşov, R.B., Amaras – Ağoğlan, Bakı, Elm nəşriyyatı, 1975. 98 səh.
7. Vahidov, R.M.,Mingəçevir III-VIII əsrlərdə (arxeoloji qazıntı materialları əsasında), Bakı, 1961. 158 səh.
8. Геюшев Р.Б. Христианство в Кавказской Албании. Баку, 1984. 191 səh.
9. Карахмедова А.А. Христианские памятники Кафказской Албании (Алазанская долина). Баку, «Наука», 19


## Şəkillər



**Şəkil 1. Birnefli kilsənin şərqdən görünüşü**



**Şəkil 2. Üçnefli kilsənin cənub divarı**



**Şəkil 3. Üçnefli kilsənin şərq divarı**



**Şəkil 4.A və B kvadratında qəbirlərin görünüşü**



**Şəkil 5. A və B kvadratı. Üstdən görünüş. qalıqları**



**Şəkil 6. Aynabəndin içərisində izlənən divar**



**Şəkil 7. Birnefli kilsənin cənub qapısı**



**Şəkil 8. Cənub divarında 3 nömrəli şurf.**



**Şəkil 9. Şimal divarında 2 nömrəli şurf.**



**Şəkil 10. A kvadratının qərb hissəsi**



**Şəkil 11.  A kvadratının şərq hissəsi**



**Şəkil 12. B kvadratının I qatı**



**Şəkil 13.  B kvadratının II qatı**



**Şəkil 14. B kvadratının III qatı**

**Şəkil 15-19. Qatlara görə qəbirlərin plan görünüşü**



**Şəkil 15.**



**Şəkil 16.**



**Şəkil 17.**



**Şəkil 18.**



**Şəkil 19.**



**Şəkil 20. Aşkar edilən kilsə divarları**


## Summary

**Natig Alishov, Vusal Gasanov**

**On The result of the archaeological and anthropological research conducted in 2019-2021 in the church of Tulu specific to Caucasian Albania**

The final result of the archaeological excavations carried out in the years 2019-2021 in the Tulu church complex and the Christian cemetery located in its southern part, located on the Tülü territory of the Balakan region. It has been destroyed. Excavations at the monument started in 2017, and it was determined that the church, which was used as a shrine, was actually the narthex of a former church. The altar, the robe, the candlestick places and the places of the north gate were removed. The main purpose of the excavation works carried out on the church land in 2019-2021 was to learn the construction date of the monument. It has been determined that a small church was built on an older religious-social structure, which was erected in a rectangular form with a length of 16.30 meters in eastern terms and a width of 10.50 meters. Considering the architectural features of the complex, the three-nave church dates back to the V-VI centuries, the single-nave church dates back to the IX-X centuries, and the mirrors built at the north and west entrances of a small church. narthex) may belong to the X-XII centuries. Excavations within the mentioned provinces were also continued in the graves located along the southern part of the church complex, generally 55 lands of gravel and a slime fragment belonging to more than 300 people were found lying on the ground. have been revealed.


***Keywords:*** *Caucasian Albania, Balakan, Tulu church, Christianity, Religion, Christian monument, Christian graves.*


## Резюме

**Натик Алышов, Вусал Гасанов**

**О результатах археологических и антропологических исследований, проведенных в 2019-2021 гг. в церкви Тулу, принадлежавшей Кавказской Албании**

Статья посвящена окончательным результатам археологических раскопок, проведенных в 2019-2021 годах в церковном комплексе Тулу, расположенном в селе Тулу Белаканского района, и христианском кладбище, построенном в его южной части. Раскопки у памятника начались в 2017 году и было установлено, что здание, зарегистрированное как усыпальница, на самом деле является зеркалом однонефной церкви, а остатки церкви, включая молельный

зал, алтарь, ризницу, канделябр , и северная дверь были обнаружены. Основной целью раскопок, проведенных на территории церкви в 2019-2021 годах, было изучение истории строительства памятника. Установлено, что двухсторонняя церковь построена на более старом религиозно-общественном здании, построенном в прямоугольной форме, длиной 16,30 м и шириной 10,50 м в направлении запад-восток. Учитывая архитектурные особенности комплекса, трехнефную церковь можно отнести к V-VI векам, однонефную - к IX-X векам, а зеркала (притворы), построенные у северного и западного входа однозальной церкви X-XII вв. В упомянутые годы были продолжены раскопки на кладбище, построенном вдоль южной стены церковного комплекса, и всего было обнаружено 55 земляных могил и фрагменты костей, принадлежавшие более чем 300 людям.

***Ключевые слова:*** *Кавказская Албания, Белакан, церковь Тулу, христианство, религия, христианский памятник, христианские могилы.*